# "PAŞA BANK KARTI İLƏ ÖDƏ, AVTOMOBİL QAZAN!" STİMULLAŞDIRICI TİRAJLI LOTEREYANIN KEÇİRİLMƏ ŞƏRTLƏRİ

## *1. LOTEREYANIN TƏŞKİLATÇISININ ADI, VÖEN-İ, OLDUĞU YER VƏ ƏLAQƏ TELEFONLARI*

1.1. Lotereyanın təşkilatçısı: Azərbaycan Respublikası Mərkəzi Bankının 28 noyabr 2007-ci il tarixli, 250 saylı lisenziyası əsasında fəaliyyət göstərən «PAŞA Bank» Açıq Səhmdar Cəmiyyətidir (bundan sonra «Təşkilatçı» adlanacaq).

1.2. Təşkilatçının hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1005, Səbail rayonu, Yusif Məmmədəliyev küç., ev 13.

VÖEN: 1700767721

Əlaqə telefonu: +994.12.496.51.00 (1695)

Fax: +994.12.496.50.10

## *2. LOTEREYANIN ADI, KEÇİRİLMƏ FORMASI, MÜDDƏTİ VƏ KEÇİRİLDİYİ ƏRAZİ*

"01" Sentyabr 2019-cu il tarixindən "31" Dekabr 2019-cu il tarixinədək Azərbaycan Respublikasının bütün ərazisində keçiriləcək *"PAŞA Bank kartı ilə ödə, avtomobil qazan!"* Stimullaşdırıcı tirajlı lotereya (bundan sonra – "Lotereya").

## *3. LOTEREYADA İŞTİRAK HÜQUQU, LOTEREYANIN (HƏR TİRAJIN) UDUŞ FONDUNA DAXİL OLAN HƏR BİR UDUŞUN ADI VƏ MİQDARI, MƏBLƏĞİ VƏ OYNANILMASI QAYDALARI*

3.1. Lotereya iştirakçısı qismində 18 yaşına çatmış, könüllü şəkildə lotereyada iştirak edən lotereya biletinin (ona bərabər tutulan digər məlumat daşıyıcısının) və eyni zamanda "Təşkilatçı"nın emissiya etdiyi əmək haqqı kartının sahibi olan şəxslər çıxış edə bilərlər;

3.2. Uduş fondunun oynanılması 4 (dörd) tirajla həyata keçiriləcək.

3.3. Lotereyada iştirak aşağıdakı qaydada baş tutur:

3.3.1. Lotereya keçirildiyi müddətdə "Təşkilatçı"nın emissiya etdiyi əmək haqqı kartı sahibi öz əmək haqqı kartı vasitəsilə həm ölkədaxilidə, həm də ölkəxaricində hər 10 AZN məbləğində və ya bu məbləğin ekvivalentində digər valyutada nağdsız ödəniş etdiyi halda 1 (bir) şans qazanır. Hər bir şans müvafiq informasiya sistemində (bundan sonra lotereya sistemi) xüsusi təkrarolunmayan nömrəyə sahib və bir lotereya biletinə bərabər tutulan məlumat daşıyıysında öz əksini tapır. Lotereya iştirakçısı şans qazandıqda lotereya sistemində müvafiq sayda məlumat daşıyıcılarına sahib olur.

3.3.2. Təşkilatçının emissiya etdiyi əmək haqqı kartı sahibi lotereyada könüllü iştirakını təsdiq etmək üçün öz şəxsiyyətini təsdiq edən sənədin FİN kodunu və kartın son 4 rəqəmini pulsuz SMS-lə 9123 nömrəsinə göndərməlidir. İştirakçının kart üzrə apardığı əməliyyatlar əsasında əldə edilən lotereya biletinə bərabər tutulan digər məlumat daşıyıcısı (eyniləşdirmə nömrəsi) barədə veb link sms vasitəsilə gündəlik əsasda iştirakçıya göndərilir. Eyniləşdirmə nömrəsi 7 simvoldan (2 hərf və 5 rəqəm) ibarət olacaqdır. Bu bəndin tələbini yerinə yetirməyən şəxs lotereya iştirakçısı qismində qəbul olunmur. İştirakçı lotereyada iştirakını dayandırmaq üçün, "STOP" sözünü 9123 nömrəsinə göndərir.

3.3.3. Uduşun alınması zamanı lotereya qalibi hazırkı Şərtlərdə qeyd olunan sənədləri təqdim edə bilmədikdə uduşu almaq hüququnu itirir. Belə uduşlar lotereyada yenidən oynanıla bilər.

Azərbaycan Respublikası Açıq Səhmdar Cəmiyyəti PAŞA Bank Open Joint Stock Company Azərbaycan Respublikası

Hüquq və Komplayns Departamenti
Hüquqi İşlər şöbəsi
PAŞA Bank ASC
Legal and Compliance Department
Legal Affairs division

*Qeyd: Hazırkı Şərtlər pul köçürmələri (CardToCard), elektron pul kisələrinə pul qoyuluşu (Quasi cash), "Unique" tipli (mərc oyunları), kredit ödənişləri, reversal əməliyyatlara (ləğv olunmuş əməliyyatlar) şamil olunmur.*

3.4. Lotereya biletinə bərabər tutulan məlumat daşıyıcısı elektron lotereya sistemində yaradılır və saxlanılır. Lotereya biletinə bərabər tutulan məlumat daşıyıcısında Stimullaşdırıcı lotereyaların təşkili və keçirilməsi Qaydasının 3.1-ci bəndində qeyd olunan məlumatlar əks olunur.

3.5. Hər tirajda 15 (on beş) lotereya iştirakçısı təsadüfi seçim yolu ilə qalib elan ediləcəkdir.

3.6. Uduşun ümumi fondu aşağıdakı hədiyyələrdən ibarətdir:

3.6.1. Standart hədiyyələr: 4 (dörd) ədəd 1000 AZN-lik səyahət kuponu, 8 (səkkiz) ədəd 300 AZN-lik Optimal kuponu, 8 (səkkiz) ədəd 200 AZN-lik GreenWich kuponu, 8 (səkkiz) ədəd 50 AZN-lik CinemaPlus kartı, 12 (on iki) ədəd SOCAR yanacaq kuponu, 20 (iyirmi) ədəd 100 AZN-lik alış-veriş kuponu (kuponlar yalnız ölkə daxilində istifadə oluna bilər)
3.6.2. Superpriz: 1 (bir) ədəd SKODA SUPERB avtomobili
3.6.3. Bir tirajda:
1 (bir) nəfər qalib - 1000 AZN-lik səyahət kuponu,
2 (iki) nəfər qalib hər biri - 300 AZN-lik Optimal kuponu,
2 (iki) nəfər qalib hər biri - 200 AZN-lik GreenWich kuponu,
2 (iki) nəfər qalib hər biri - 50 AZN-lik CinemaPlus kartı,
3 (üç) nəfər qalib hər biri - 100 AZN-lik SOCAR yanacaq kuponu,
5 (beş) nəfər qalib hər biri - 100 AZN-lik ARAZ supermarketin alış-veriş kuponunu əldə edəcəkdir.
3.6.4. Dördüncü tiraj 2 (iki) turdan ibarət olacaq. Birinci turda yuxarıda qeyd edilmiş hədiyyələr oynanılacaq, ikinci turda isə bütün lotereya müddətində qazanılmış şanslar arasında təsadüfi seçim yolu ilə 1 (bir) nəfər qalib super uduş qismində qara rəngli, mühərrik həcmi 1395 $sm^3$ olan, 2019-cu il istehsalı olan, istifadə olunmamış "SKODA SUPERB" marka və modelli avtomobil mükafatını əldə edecəkdir.
3.6.5. Qeyri-pul uduşlarının əvəzinə onların pul ekvivalentinin ödənilməsinə yol verilmir

3.7. Birinci tiraj "11" Oktyabr 2019-cu il tarixində, ikinci tiraj "11" Noyabr 2019-cu il tarixində, üçüncü tiraj "11" Dekabr 2019-cu il tarixində, dördüncü tiraj "13" Yanvar 2020-ci il tarixində oynanılacaq.

3.7.1. Birinci tirajda "01" Sentyabr 2019-cu il - "30" Sentyabr 2019-cu il, ikinci tirajda "01" Oktyabr 2019-cu il - "31" Oktyabr 2019-cu il, üçüncü tirajda "01" Noyabr 2019-cu il - "30" Noyabr 2019-cu il, dördüncü tirajda "01" Dekabr 2019-cu il - "31" Dekabr 2019-cu il tarixləri arasında (hər 2 tarix daxil olmaqla) qazanılmış şanslar oynanılacaqdır və bu tirajlarda təsadufi seçim yolu ilə seçilən müştərilərə bu Şərtlərin 3.5-ci bəndində qeyd edilmiş standart hədiyyələr təqdim olunacaqdır.

3.7.2. Dördüncü tirajın birinci turunda "01" Dekabr 2019-cu il - "31" Dekabr 2019-cu il tarixləri arasında qazanılan şanslar oynanılacaq və bu tirajlarda təsadüfi seçim yolu ilə seçilən müştərilərə bu Şərtlərin 3.5-ci bəndində qeyd edilmiş standart hədiyyələr təqdim olunacaqdır. İkinci turda isə "01" Sentyabr 2019-cu il - "31" Dekabr 2019-cu il tarixləri arasında qazanılan şanslar üzrə oynanılacaq və təsadüfi seçim ilə müəyyən edilmiş bir müştəriyə superpriz təqdim olunacaqdır.

3.8. Lotereyanın hər bir iştirakçısı oynanılan mükafat növlərindən yalnız 1 (bir) ədəd qazana bilər. Super uduşun oynanılmasında bütün lotereya iştirakçıları iştirak edə bilərlər.

3.9. Uduşlar aşağıdakı qaydada oynanılır:

3.9.1. Lotereya biletinə bərabər tutulan məlumat daşıyıcıları tərkibindən (siyahısından) qalibin seçilməsi və Uduş fondunun oynanılması xüsusi kompüter proqramı (bundan sonra «Proqram» adlanacaq) vasitəsilə elektron püşkatma qaydasında həyata keçirilir.

3.9.2. Oynanılan uduşun adı elan olunur. Lotereyanın uduş fondunun oynanılması üçün lotereya proqramı işə salınır və bir müddətdən sonra dayandırılır. Proqram lotereyanın oynanıldığı tirajın uduş fondunun

Azərbaycan Respublikası Açıq Səhmdar Cəmiyyəti PAŞA Bank Open Joint Stock Company Azerbaijan Republic

Hüquq və Komplayns Departamenti
Hüquqi İşlər şöbəsi
PAŞA Bank ASC
Legal and Compliance Department
Legal Affairs division

sayına uyğun olaraq təsadüfi lotereya biletinə bərabər tutulan məlumat daşıyıcıları seçir. Bu lotereya biletinə bərabər tutulan məlumat daşıyıcıları uduşlu sayılır. Uduşlu lotereya biletinə bərabər tutulan məlumat daşıyıcıları kompyuterin monitorunda göstərilir və tiraj komissiyası tərəfindən bu barədə müvafiq qeydiyyat aparılır.

3.10. Püşkatma həmçinin növbəliklə 5 (beş) əvəzedici qalib müəyyən edir. Əgər 1-ci qalibin uduşu almağa hüququ yoxdursa, şərtlərə əsasən uduş 2-ci qalibə, əgər ikinci qaliblə də eyni vəziyyət yaransa, uduş növbəliklə digər şəxslərə ötürülür. Qaliblər növbəti günün əvvəlində Təşkilatçı"nın müştəri xidmətləri mərkəzindən zəng vasitəsi ilə qalib olmaları barədə məlumat alır. Müştəri xidmətləri mərkəzindən ona uduşun nə zaman və hansı müştəri mərkəzindən alacağı haqqında məlumat verilir.

3.11. Lotereyada uduşu udmuş iştirakçılar uduşu almaq üçün Təşkilatçıya şəxsiyyətini təsdiq edən sənədin əslini təqdim etməlidir.

3.12. Təşkilatçı uduş fondunun oynanıldığı tarixdən 5 (beş) iş günündən gec olmayaraq kütləvi informasiya vasitələrində və 7 (yeddi) iş günündən gec olmayaraq qaliblərə müvafiq uduşların ödənilməsi müddəti və qaydası barədə məlumat verir.

3.13. Lotereyanın uduş fondunun qanunvericiliyə uyğun oynanılmasına nəzarəti həyata keçirmək məqsədi ilə qanunvericilikdə nəzərdə tutulmuş qaydada 5 (beş) nəfərdən ibarət Tiraj komissiyası yaradılacaq və uduş fondunun oynanılmasına azı 1 (bir) iş günü qalmış Tiraj komissiyasının üzvləri haqqında müvafiq məlumat AR MBNP-yə təqdim ediləcək.

3.14. Qalib tərəfindən uduşun alınması hüququnun üçüncü şəxslərə güzəşt edilməsinə yol verilmir.

3.15. Lotereyanın uduş fondunun oynanılması Bakı şəhəri, Yusif Məmmədəliyev küçəsi, ev 13 (Təşkilatçının Baş ofisi) ünvanında baş tutacaq.

3.16. Qalib olan İştirakçılar uduş fondunun oynanıldığı tarixdən 7 iş günü sonra və 90 iş günü ərzində şəxsiyyəti təsdiq edən sənədi təqdim edərək Təşkilatçının baş ofisinə (Bakı şəhəri, Yusif Məmmədəliyev küçəsi, ev 13) müraciət edə bilərlər. Uduş, qalib olan müştərinin tələbi irəli sürüldüyü tarixdən etibarən 30 (otuz) iş günündən gec olmayaraq ona verilir.

3.17. Təşkilatçının məsuliyyəti uduşun hazırkı şərtlərdə müəyyən edilmiş dəyəri və sayı çərçivəsindən kənara çıxmır.

## *4. LOTEREYADA İŞTİRAK ÜZRƏ İSTİSNALAR*

4.1. Aşağıda göstərilən şəxslər Lotereyada iştirak etmək hüquqları yoxdur və istənilən halda Lotereyanın iştirakçısı sayılmırlar:

a) 18 yaşına çatmamış şəxslər;

b) Lotereyanın Təşkilatçısının əməkdaşları və onların ailə üzvləri (həyat yoldaşı, övladları, qardaş/bacıları, valideynləri);

c) Lotereyanın keçirilməsinə bu və ya digər formada cəlb olunan hüquqi və fiziki şəxslər yaxud onların nümayəndələri, ailə üzvləri (həyat yoldaşı, övladları, qardaş/bacıları, valideynləri);

d) Lotereyanın qaliblərinin müəyyən edilməsi üzrə tiraj komissiyanın üzvləri və onların ailə üzvləri (ər/arvad, övladları, qardaş/bacıları, valideynləri).

4.2. Lotereyaya aid olan reklam daşıyıcılarında yuxarıda göstərilən istisnalar barədə məlumat veriləcək. Həmin şəxslər lotereyada iştirak edərsə, heç bir uduş əldə edə bilməyəcəklər.

## *5. MƏLUMATIN TƏQDİM EDİLMƏSİ*

Azərbaycan Respublikası Açıq Səhmdar Cəmiyyəti PAŞA Bank Open Joint Stock Company Azerbaijan Republic

Hüquq və Komplayns Departamenti
Hüquqi İşlər şöbəsi
PAŞA Bank ASC
Legal and Compliance Department
Legal Affairs division

5.1. Təşkilatçı Lotereya iştirakçısının yazılı razılığı ilə onun adı, soyadı, ixtisası və iş yeri barədə məlumatların marketinq məqsədləri üçün istifadə edə bilər.

5.2. Təşkilatçı lotereya İştirakçının yazılı razılığı ilə göstərilən məlumatların, foto şəkillərin, müsahibələrin, digər materialların kütləvi informasiya vasitələrində, hər hansı çap, audio-video materiallarında pulsuz olaraq istifadə edə bilər.

5.3. İştirakçı Lotereyanın Təşkilatçısı tərəfindən göndərilən məlumatların, SMS-mesajların, reklam xarakterli digər mesajların qəbul edilməsinə öz razılığını təsdiq edir.

### *6. DİGƏR ŞƏRTLƏR*

6.1. Bu şərtlər lotereya iştirakçılarının tanış ola bilməsi üçün Təşkilatçının rəsmi saytında (www.pashabank.az) açıqlanır və lotereyanın Təşkilatçısı və İştirakçıları üçün məcburi qüvvəyə malikdir.

6.2. Lotereyanın İştirakçı tərəfindən mövcud Şərtlərin pozulması, və ya İştirakçı tərəfindən hazırkı Şərtlərin yerinə yetirilməsindən imtina (o cümlədən Lotereyanın keçirilməsi və/və ya uduşun əldə olunması, qaydası və müddəti ərzində) İştirakçı tərəfindən Lotereyada iştirakdan imtina kimi hesab ediləcək.

6.3. Stimullaşdırıcı lotereyaya nəzarət Təşkilatçının Fərdi Bankçılıq Departamentinin Məhsulların İdarəedilməsi şöbəsi tərifindən həyata keçiriləcək.

6.4. Lotereyanın təşkili və keçirilməsi ilə əlaqədar digər münasibətlər Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.

6.5. Qaliblərin siyahısı və onlar haqqında məlumat tirajdan sonra www.pashabank.az saytında yerləşdiriləcəkdir.

6.6. Lotereyanın təşkilatçısı tərəfindən elektron informasiya sisteminə nəzarətin təmin edilməsi məqsədilə, Maliyyə Bazarlarına Nəzarət Palatasını bu sistemə baxış rejimində birbaşa çıxışla təmin edəcəkdir.

6.7. Lotereyanın keçirilməsi ilə bağlı təşkilati və digər məsələlərin həlli üzrə məsul şəxs Bankın Fərdi Bankçılıq Departamentinin Məhsulların İdarəedilməsi şöbəsinin baş mütəxəssisi Dəmirbəyli Tamerlan (+994124965000 dax.1695, e-mail: tamerlan.damirbayli@pashabank.az, +994502514195).

Azərbaycan Respublikası Açıq Səhmdar Cəmiyyəti PAŞA Bank Open Joint Stock Company Azerbaijan Republic

Hüquq və Komplayns Departamenti
Hüquqi İşlər şöbəsi
PAŞA Bank ASC
Legal and Compliance Department
Legal Affairs division